Respublika.- 2022- ci il.- 11 avqust.- S. 6.

BALAKƏN

# "Balxurma" MMC dünya bazarında aktivliyini qoruyur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixdə Fərman imzalayıb. Fərmandan sonra yaranan "Balxurma" MMC rəqabətqabiliyyətli və ixracyönümlü yerli məhsulların xarici bazarlarda "Product of Azerbaijan" brendi altında uğurlu fəaliyyət göstərir. Balakən rayonu, Katex kəndi ərazisində yerləşən müəssisə bir sıra beynəlxalq sertifikatlara layıq görülməklə dünya bazarında aktivliyini qoruyur.**

Baş direktorun müavini İsfəndiyar İsfəndiyarov əməkdaşımızla söhbətində qeyd edib ki, yarandığı ildən başlayaraq, "Balxurma" müəssisəsi rayonun iqtisadi və sosial həyatına öz töhfəsini verib. Müəssisədə mövsüm vaxtı 350, qeyri-mövsüm vaxtında isə 80 nəfərdən çox insan işlə təmin olunur və yeni iş yerlərinin açılması istiqamətində tədbirlər aparılır.

Xurma ilə zəngin olan bölgəmizdə xurmanın emal olunaraq dünya bazarına çıxarılması rayon iqtisadiyyatına müsbət təsir göstərəcək, ölkəmizə valyuta gəlməsinə imkan yaradacaqdır.

Müəssisə müasir istehsal sahələri, avtomatlaşdırılmış - kompüterləşdirilmiş avadanlıqlar, son texnologiyalara əsaslanan laboratoriya, zövq və modern dizayn ilə tərtib olunmuş inzibati bina, yeməkxana ilə təchiz olunmaqla istifadəyə verilib.

Qeyd olundu ki, "İSO 22000" Beynəlxalq sertifikatını alan müəssisəmiz üçün bu, Avropa və dünya bazarlarına geniş çıxış imkanları verir. Bundan əlavə olaraq, müəssisəmizdə Kosher, FDA kimi digər beynəlxalq sertifikatlar da mövcuddur. Beynəlxalq səviyyəli qurumlar və laboratoriyalar tərəfindən verilən sertifikat və rəylər müəssisəmizin istehsal etdiyi məhsulların dünya bazarlarında, ciddi rəqabət şəraitində davam gətirməsinə və "Made in Azerbaijan" brendinin yüksəkdə saxlamasına zəmanət verir. Balxurma şirkəti Niderland krallığı, Almaniya, Litva, Rusiya və s. xarici ölkələrə quru xurma məhsulları ixrac edir. Hər il istehsal gücünü artıran müəssisə yeni bazarların axtarılmasında aktiv fəaliyyət göstərir. Müəssisə bu mövsüm İsrail və Yaponiya bazarına az miqdarda quru xurma məhsulu ixrac etməklə növbəti mövsümdə bunun artırılması yönündə işlər aparır.





Qısa müddətdə fəaliyyətə başlamasına baxmayaraq, müəssisəmiz bir sıra uğurlara imza atmaqla Berlin, Dubay, Şanxay, Bakı beynəlxalq ərzaq sərgilərində uğurla iştirak edib. Moskva beynəlxalq ərzaq sərgisində "İlin məhsulu" adını alaraq Qızıl Medal mükafatı ilə təltif olunub. Bu uğurlar ölkəmizin nailiyyəti, aparılan uğurlu siyasətin bəhrəsidir.

Müəssisə quru və yarımquru meyvələrin istehsalı sahəsində öndə gedən, avtomatlaşdırılmış texniki avadanlıqlarla təchiz olunmaqla nəzdində yuyulma, soyulma, soyutma və qablaşdırma sexləri fəaliyyət göstərən, müasir standartlara cavab verən müəssisədir. İstehsal üçün lazım olan meyvələr Balakən və qonşu rayonların sakinlərinin şəxsi xurma sahələrindən yığılır və ciddi keyfiyyət nəzarəti keçir. Keyfiyyət nəzarətini keçən meyvələr istehsalata daxil olur və müasir avtomatlaşdırılmış avadanlıqlar bu meyvələrin bütün xeyirli maddələrini qoruyub saxlamağa və 100% bioloji təhlükəsizliyini təmin etməyə imkan verir. İstehsal prosesinin tam gigiyenik şəraitdə aparıldığı şirkətimizdə emal müəssisəsinə gətirilmiş xurma əvvəlcə çeşidlənir, zədələnmiş, yetişməmiş və yetişmə müddəti ötmüş meyvələrdən təmizlənərək təmiz suda yuyulur. Yuyulmuş və təmizlənmiş xurmaların suyu xüsusi qurğuda, aşağı temperaturda kənarlaşdırılır, bu da xurmanın qida dəyərini və bütün faydalı keyfiyyətlərini qoruyub saxlamaqla yanaşı, onun təbii rəngini dəyişmədən qalmasına imkan verir. Xurma məhsulu hazır olduqdan sonra xüsusi qablara yerləşdirilir, soyuducu kamerada mənfi 25 C temperaturda soyudulur. Hazır məhsul satışa göndəriləne qədər xüsusi rejimdə anbarlarda saxlanılır. Müəssisənin faydalı məhsulları qida sənayesinə, iaşə müəssisələrinə orqanik müxtəliflik, çay süfrələrinizə ləzzət, dostlarınız və yaxınlarınız üçün isə xoş günlərdə nəfis tərtibatlı hədiyyədir.

Qeyd olundu ki, rayonda keçirilən Xurma Festivalı nəinki respublikamızda, hətta Qafqazda ilkə imza atıb, xurma məhsulunu təqdim etməklə bərabər, ondan hazırlanmış müxtəlif çeşidli qida məhsullarını yerli və xarici qonaqlara təqdim edib. Yüksək səviyyədə keçən bu festivalda müəssisəmizin dəvət etdiyi əcnəbi qonaqlar da iştirak etməklə rayonumuzun, ümumilikdə, respublikamızın inkişaf tempinin şahidi olublar.

Müəssisənin perspektiv inkişafı barədə danışan baş direktorun müavini qeyd etdi ki, kollektivimiz yeni məhsul istehsalında və xammal axtarışında tədqiqatlarını davam etdirir. Kənd təsərrüfatı məhsullarının artırılması, daha məhsuldar və yerli şəraitə uyğun yeni sort və növlərin gətirilməsi, artırılması və zonalaşdırılması üçün araşdırmalar və danışıqlar aparılır. Bu isə öz növbəsində yerli əhali arasında yaxın gələcəkdə məşğulluq və iş yerlərinin artırılmasına da şərait yaradacaq.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**